# ШИРИН ХАНЫМ

# ҮРӘК, НИЈӘ АҒРЫЈЫРСАН?



(*Шe'рләр*)

205206

АЗӘРБАЈҸАН ДӨВЛӘТ НӘШРИЈЈАТЫ
Бакы — 1991

ББКС (Аз)2
Ш 68

*Китаб мүәллифин вәсаити һесабына нәшр олунур*

**Ширин Ханым (Кәримбәјли Ширинханым)**

Ш 68 Үрәк, нијә ағрыјырсан? Б.: Азәрнәшр, 1991. 56 сәһ.

Китабда топланан ше'рләрин әсас гајәси ичтимаи-сијаси һәјатымыз вә бу һәјатдан доған чәтинликләрдир. Ше'рләрдә икијә бөлүнмүш Азәрбајчан, нараһат дүнјамыз, бәшәрин јарадычысы инсан һаггында дүшүнчәләр башлыча мөвзудур.

Үч илдән чох башымыза кәлән фачиәләр, дидәркинләр вә онларын мүсибәтләри, Гарабағ, гара јанвардан доған кәдәрли мөвзулар китабын ана хәттидир. Китабда Нефт дашлары, өлү зонаја чеврилмәкдә олан Хәзәрин һарајы, енишли-јохушлу һәјат вә онун кешмәкешләри јаныглы поезија дили илә сөјләнир. Бир-биримизә гаршы сојуганлығымыз вә бу сојуганлыгдан доған чәтинликләр, пак вә саф мәһәббәт, онун ағры-ачылары лирик бир дилдә гәләмә алыныр.

Ш $\frac{4702060202-107}{М-651(07)-91}$ 212—91 **ББКС (Аз)2**

**ISBN 5—552—00810—3**

© Азәрнәшр, 1991

## AZƏRBAYCAN ELİNİZƏ QURBAN OLUM

Vətən nədir?–Doğulduğun pak torpaq,
Ayaq altda solub-saralan yarpaq,
Qızda örpək, igidlərdəsə papaq,
O qapqara telinizə qurban olum,
Azərbaycan elinizə qurban olum.

Yad ellərdə Vətən deyən ellilər,
Dilim ilə qanbir olan dillilər,
Udu, sazı muğam deyən tellilər,
Göz yaşından selinizə qurban olum,
Azərbaycan elinizə qurban olum.

O tayımda çən tökülən çaylara,
Qəm gətirən fəsillərə, aylara,
Sinələrdən qopan ahı-vaylara…
Gətirməyən ilinizə qurban olum,
Azərbaycan elinizə qurban olum.

Yağı açdı başınıza kələklər,
Nalənizdən ağalar qaldı fələklər,
Çox sinədə heçə döndü diləklər,
«Su, su » deyən çölünüzə qurban olum,
Azərbaycan elinizə qurban olum.

Yaxşı qaldı yaman əldə pisə nə?
Ocaq çatan alov yoxsa hisə nə?
Əcəl gəlsə ölümə nə, yasa nə?
Həzin əsən yelinizə qurban olum,
Azərbaycan elinizə qurban olum.

Vətən deyib ey kök salan nəsillər,
Kök üstündə pardaqlanan əsillər,
Çox ellərdə haqqın dilin kəsillər,
O birləşən əlinizə qurban olum,
Azərbaycan elinizə qurban olum.

Ey Şadiman, şərin yeri bucaqdı,
Məramları hələ qucaq-qucaqdı,
Yanar sinəm odu keçməz ocaqdı…
Ocvağınıza, külünüzə qurban olum,
Azərbaycan elinizə qurban olum.

25.10.1987

## ANA DİLİM

Min-min tarix yaşındandır,
Torpağından, daşındandır,
Xəzərin göz yaşındandır,
Dönüb bağrın qana dilim,
Ana dilim, ana dilim.

Çoxdur uca məğrur qalan,
Bakı – bağrı qanlı balan,
Çətin günlər ola yalan,
Qovuşa qan-qana dilim,
Ana dilim, ana dilim.

Dədəm Qorqud qopuz çaldı,
İgidləri yola saldı,
Yağılardan qisas aldı,
Çatdın ada, sana dilim,
Ana dilim, ana dilim.

Məhəbbətin bir ummandır,
Araz üstü çən, dumandır,
Qaldır səin sən amandır,
Qoyma Təbriz yana dilim,
Ana dilim, ana dilim.

Zeynəb xanım ellər gəzər,
Sənlə min bir mahnı bəzər,
Təmiz ləhcən çələng düzər –
Səs salar hər yana dilim,
Ana dilim, ana dilim.

Sevənlərə çiçək oldun,
Gəlinlərə ləçək oldun,
Göyçəklərdən göyçək oldun,
Çat şöhrətə şana dilim,
Ana dilim, ana dilim.

Gələcəyə sən şahid ol,
Arı təki pətəyi bol,
Dağı, düzü ətəyi bol,
Söykə şanı şana dilim,
Ana dilim, ana dilim.

Bu Şadiman çələng düzər,
Hər şeriylə səni bəzər,
Uzaq olsun səndən nəzər…
Ay anama ana dilim,
Ana dilim, ana dilim.

08.05.1987

## OĞUZ BABAM – DƏDƏM QORQUD

Oğuz babam – Dədəm Qorqud,
taladılar Göyçəmizi, Zəngəzuru,
Unutqanlıq yolun tutdu
Rəbbə gedən can hüzuru…
Dağıtdılar ustad ozan Ələskərin məzarını!..
Qadir Allah eşitmədi qədim yurdun ah-zarını.
Ocaq söndü, bərbad oldu neçə min yurd,
Niyə girib öz qınına qurd oğlu qurd?
Qarı düşmən yaman çıxı sudan quru,
Bostanımız baharında oldu uru.
Qan töküldü, ev yıxıldı göz yaşımız selə döndü,
Bir millətin gələcəyi bəd ağızda dilə döndü.

Oğuz babam –Dədəm Qorqud
haray çəkir, fəryad edir,
Keçmişləri hey yad edir,
elimdə saz, tar, kamn, ud.
Ölübdümü sinədə mən?
Yarımasın qəvi düşmən,
O günahsız Bakımızın sinəsinə çilədi qan,
Haray saldı paramparça bədənlərdə titrəyən can!
İgidlərin parçalandı tanklar altda…
Qana batdı bu həyatda.
Güllələrin qurd ağzına yem oldular
uşaq, qoca, gəlin, ana,
Yağıların bais oldu nahaq qana
Baş alıbdı haqsızlıqlar bu elatda.
Qanlı yanvar gecəsində sipər oldu
şəhidlərin sinələri güllələrə!!!
Nalə çəkdi, sızıldadı hər dağ, dərə.
Qürurumuz tapdalandı…
Gecə-gündüz arzularla coşub-daşan,
Dərd-bəlası qatılaşan
ürəyimiz çox talandı.

Oğuz babam, hanı mənim babalarım?
Yurdumuzun birliyini haçalayan,
Azərbaycan ellərini neçə yerə parçalayan?
O müqəddəs ruhları incimәsin,
Cavab versin haqsızlıqla qoparılan,
Güclə, zorla pak tarixi yad ellərə aparılan,
dağıdılmış əyalına,
parçalanmış cəlalına.

Dədəm Qorqud, iş deyəndə işləyən biz,
Gekcə-gündüz çalışırıq, vuruşuruq,
Vaxt-vədəsiz bükülür bel, qatlanır diz.
Haqqımızla yarışırıq,
Biz yer verdik Qarabağda yurdsuz bilib yağılara,
Çoxaldılar mikrob təki tarixə yaxdılar qara.
Böyük Behişt dediyin yer
Düşmənlərin tamahını itiləyib,
Bu haqsızlıq o müqəddəs yurdu əyib.
Dastanlarda təriflənən İrəvanın Yeravandı,
Suyu ağlar, könlü qərib Göyçə gölün də Sevandı.
Hiyləbazlar, özgəsinin torpağına göz dikənlər,
köksümüzə dağ çəkənlər,
Zəngəzurdan qovladılar dağ vüqarlı elliləri,
Babam oğuz dilliləri.

Oğuz babam –Dədəm Qorqud,
könlü ağlar Borçalımız,
qovuşmayan vüsalımız.
Ayrılığa açar oldu,
min bir yerdən paralanmış
od yurduna baxa-baxa naçar oldu.
Tarixlərin yarasını dada-dada
min bəlaya düçar oldu!
Hey itirdik… itirdikcə
yurdumuzun zərrəsini, parasını,
Tez unutduq könlümüzün yarasını…
Pıçıldadıq «keçən keçdi, olan oldu»…
Guman etdik bəxtimizə düşən yoldu.
Dəmir qapı Dərbənd hanı?
Vətənimin tən içindən qopdu canı…
Əlimizdən getdi od da,
Yağıların mədəsinə düşən qida.
Araz üstdən evimizin ortasından
Çəpər çəkdi yarımamış qarı düşmən!

Dilimizdə kilidləndi ah üzlü mən.
Əhdi yalan, planı qan,
Nalə çəkdi dəqiqə, an.
«O tay, bu tay» deyə-deyə
Oğuz babam yandı ellər,
Sipər oldu sinəmizə o tikanlı, qanlı tellər.
O tayımız fars adlandı,
Çox hissəsi bu Vtənin aralandı.
Oğuz elin dili söndü, çərxi döndü.
Bu tayımız… dil dəyişdi, qan dəyişdi,
Kök-soyumuz yalan oldu.
Odlar yurdu Azərbaycan üsbəüstdən
yüz yetmiş il talan oldu!
Dədəm Qorqud, demə mənə
keçən keçdi, olan oldu…

Ey dünyanın düzlük sevən adamları,
parçalanmış,
haçalanmış,
ocağına su calanmış,
torpağımın yaraları bitişməyir!..
Fəryadımız görən niyə
başbilənlər dünyasına yetişməyir?
Yüz yetmiş il ağı olmuş,
Çiynimizdə dağdan ağır dağı olmuş,
O tay adlı faciədən xəbərsizlər…
İtməmişdi tarixlərdən, qalır izlər.
Ey Vətənin birliyiçin can verənlər,
Arzuları parçalanmış
Bağrı para, ey ölənlər…
Zindanlara,
Məhbəslərə,
atılanlar,
Ey «millətçi» damğasıyla
millətçilər sırasına qatılanlar!
And içirik!
Söndürülmüş ocaqların pak oduna,
And içirik!
Odlar yurdu –Azərbaycanın adana,
hirsimiz,
qəhərimiz,
birləşəcək,
Qəlbimizdə yerləşəcək,
Yağıları, xainləri, satqınları boğacaqdır,
BİR GÜN GÜNƏŞ DOĞACAQDIR!!!

12.02.1990

## AZƏRBAYCAN

Yağıların içində bir hayqırtı qoparır,
Ey mənim dərdli anam, yurdunu qan aparır,
Varını, sərvətini gəlib-gedən aparır…
Mənim tək bəxti qara, yaralı Azərbaycan,
Bağrı para, sinəsi paralı Azərbaycan.

Nələr çəkmədi başın dünyaya göz açandan,
Bağında, bağatında yad çiçəklər açandan,
Gözündə yaş qurumaz, üzün gülməz haçandan…
Naləsi ərşə bülənd boğulan Azərbaycan,
Çörəyi göz yaşıyla yoğrulan Azərbaycan.

Yağı güllər ilə sinən də dəlik-deşik,
Çağası parça-parça – qana bələnmiş beşik,
Xain əllə uçulur, viran olur ev-eşik,
Fəryadına yetişən tapılmaz Azərbaycan,
Heç el, heç yurd sənin tək çapılmaz Azərbaycan.

İçindəki o nalən parçalayır sinəmi,
Tanrı bizə tuş edir niyə bu dərdi-qəmi?
Yağıların başından getməz fitnənin dəmi,
İstəyi ürəyində puç olan Azərbaycan,
İblis, şeytan əlində sozalan Azərbaycan.

Bəs nə vaxt gülər üzün bu qarışıq dünyada?
Kim haqqınıi analayıb yetəcəkdir fəryada?
Ətrafında nəhrlər sənsə kimsəiz ada…
Zəhmətin zindanında döyülən Azərbaycan,
Tükənməz varidatı üyülən Azərbaycan.

Əzraildan məkirli yağıların cəlladdı,
Əzəli sadəlövhlik səni uçruma atdı,
Yüz yetmiş il taleyin fil yuxusunda yatdı…
Döydü şimal küləyi başına Azərbaycan,
Qan töküldü yuvana, daşına Azərbaycan.

Bu qanlı dünyamızın ey talesiz övladı,
Düşmənini dost bilib yaxın eyləmə yadı,

Yetsin ulu Tanrıma ruhun şəhid fəryadı,
O qanlı köynəyini haqq yusun Azərbaycan,
Savaş istəyənlərin oyulsun Azərbaycan.

Bu Şadiman, gözündə leysanın, qanlı yaşın,
Qalsam igid övladın, ölsəm torpağın, daşın,
Əsarətə üsyankar yaralı vətəndaşın,
O müqəddəs haqqını durma al Azərbaycan,
Dolaşsın torpağını istiqlal Azərbaycan.

02.12.1990/ Qızılqum

## HARAY DÜNYA

İçimizdə boğulubdu üç ildir ki, fəryadımız,
Yad ellərə davakar tək tanıdılır pak adımız,
Güllələndi gecə ilə əliyalın cihadımız,
Boğuluruq qəhr içində yetməyirsən dada, dünya,
Verme haqqı, ədaləti heç bir zaman bada, dünya.

Torpaqdan da pay olarmı dilənçi tək dilər yağı?
Pozulubdu yurdumuzun xoş günləri, xoş növrağı,
Nə qədər bu el görəcək üsbəüstdən sinə dağı?
O günahsız şəhid olmuş igidlərə ağla, dünya,
Qan-qan deyən fitnəkarın qapısını bağla, dünya!

Alovuna qızındığım ey Haqq harda inləyirsən?
Məlunların, güclülərin əmirinmi dinləyirsən?
Bəlkə şərlə əlbir olub çsinə yıxıb, qədd əyirsən?
O tökülən qanımıza insaflı ol qıyma, dünya
O mələkə qiyafəli iblislərə uyma, dünya.

Haram olub halal tikə nə müddətdi elimizə,
Çox zalımlar, çox qansızlar qıfıl vurub dilimizə,
Sən sükutla baxma böylə qana dönmüş ilimizə,
Yurdumuzun göylərindən çəkilməyir duman, dunya,
O günahsız şəhidlərə bir aman et, aman dünya.

Viran olmuş könlüm evi nə vaxtdır ki, qəfəsdədir,
Ağlar sinəm, ağlar qəlbim dərddən axır nəfəsdədir,
Bilən varmı, ey Şadiman, yağılar nə həvəsdədəir?
Dağıdıldı çox yurd-yuva, əhli-əyal, saray dünya,
Əfqanımdan fələk ağlar, haray dünya, haray dünya!

08.02.1990

## ŞƏHİD QANLARI

Çiləndi hasara, daşa, divara,
Torpağa qarışdı şəhid qanları.
Tanrı leysan tökdü aha, fəryada,
Dövrana qarqışdı şəhid qanları.

Bakını qaraya boyadı qanlar,
Qanunsuz, hökümsüz didildi canlar,
Vaxtsız həyatını verdi insanlar…
Məşəl tək alışdı şəhid qanları.

İtirdi rəngini çiçəklər, güllər,
Nalədən, fəqandan asiman mələr,
Torpağın gözünə çəkildi millər,
Ulduz tək sayrışdı şəhid qanları.

Göynədər sinəni getməz bu dağlar,
Hər vaxt, ey Şadiman, köksünü dağlar,
Qanunlar, hökümlər qapını bağlar,
Qanuna « alqışdı » şəhid qanları.

23.07.1990

## İTGİN ŞƏHİDLƏR

Evindən biryolluq getdi o gecə…
Xəbərsiz-ətərsiz itgin şəhidlər.
Yağı gülləsiylə itdi o gecə,
Özgəyə xətərsiz itgin şəhidlər.

Analar, bacılar yolları pusar,
Arada əlçatmaz, keçilməz hasar,
«Balam vay» deyənlər min yol qəm qusar!
Torpaqda bitərsiz, itgin şəhidlər.

O gecə çox sinə göyə sovruldu,
Analar, bacılar yandı, qovruldu,
Haqsızlıq önündə ədalət quldu…
Siz haqqa yetərsiz itgin şəhidlər.

Vətən haqq axtarır, haqsa amanda,
Yaman yaxşı donda, yaxşı yamanda,
«Azad qanunlarla» azad zamanda,
Məzarsız itərsiz itgin şəhidlər.

30.06.1990

## AĞLA, ÜRƏYİM, AĞLA

Xəzəl oldu töküldü arzumuz para-para,
Bu elin ünvanına çox yaxılıbdı qara,
Çəkildi bir gecədə arzularımız dara,
Ağla, ürəyim, ağla.

Dərdə dözümlü Bakım, Allah, qara geyindi,
Qəfil yağı gülləsi namərd əldə öyündü,
Bu an həyat eşqiylə çox ürəklər döyündü…
Ağla, ürəyim, ağla.

Baharı xəzəl olmuş günahsız qurbanlara,
Arzusu daşa dəymiş vaxtsız gedən canlara,
Yağı fitnəsi ilə o tökülən qanlara,
Ağla, ürəyim, ağla.

O gecə dağ çəkildi anam Azərbaycana,
Neçə quduzun əli batdı günahsız qana,
Gülləbaran olundu çox körpə, uşaq, ana,
Ağla, ürəyim, ağla.

Ey Şadiman, bu dərdi necə gəzdirsin ürək?
Yağının fitvasına düçar olduq, ey fələk,
Puç oldu bəslədiyim nə qədər urzu, dilək,
Ağla, ürəyim, ağla.

17.03.1990

## GÜLLƏLƏR

Didib parçaladılar tanklar altında bizi,
Neçə yol şəhid oldu büu yurdun övladları.
Ağ saçlı anaların ağlar nigaran gözü…
Özləri nakam getdi, qaldı şəhid adları.

Ey sərvi boylu xanım, vallah baxa bilmirəm,
Namərədlərin əliylə yaralanmış sinənə.
Niyə çəkdilər haqqı ah, çarmıxa bilmirəm?
Niyə divan tutuldu haqq yolunda dinənə?

Pərakəndə xəyalım ruhunuzla qol-boyun,
Gecə-gündüz sinəmi qamçılayır ürəyim,
Alla, danmaq olarmı qədim xalqın kök-soyun?
Ey göylər, harda qalıb o rəhimdil mələyim?

Qeyrətin qorumaqmı bu elin günahıdır?
Bəlkə mərdlik, cəsurluq könlünüzü açmayır.
Mən bilirəm, görürəm elin xoş sabahını,
Canilərsə heç zaman Tanrıdan yan qaçmayır.

O güllələnmiş Bakı məlul-məlul sussada,
Onun hirsi, qəhəri sinəmi parçalayır.
Bir xalqın haqqı-sayı belə gedəndə bada,
Yalnız ədalətsizlik yolları haçalayır.

Yağılar öz işində... ölməli kim, ölən kim?
«Haqqam» deyib bağıran haqqımı damğalayır.
Qanunlar gərdişində bölünən kim, bölən kim?
Sığınacaq tapanlar yurdumu yağmalayır.

Başını qoruyandan yurda vətəndaş olmaz,
Haqq-nahaq bilinməsə susmayacaq bu ellər.
Ey Şadiman, namərddən elinə qardaş olmaz,
Tanrısından qorxmayan Tanrısın da güllələr.

30.061990

## DİDƏRGİN QIZ

Dikmə qəmli baxışları,
Nədir aman, didərgin qız?
Dilindəki qarğışları
Verdi dövran, didərgin qız.

Sənə olan zülüm, sitəm,
Torpağıma yazdı matəm,
Gözlərindən qurumaz nəm –
Sökülər can, didərgin qız.

Orda-burda keçər günün,
Yetməz haqqa niyə ünün,
Düşüb ayrı elə yönün –
Haqlı yaman, didərgin qız.

Çöhrən dalğın, fikirlidir,
Baxışların nə sirlidir?
Yağıların məkirlidir –
Verib fərman didərgin qız.

Bu Şadiman çəkdi qəhər,

Yediyi də oldu zəhər,
Yurdun yuvan yada bəhər –
Hanı dərman, didərgin qız?

23.071990

## CAN BALA

Göytəpənin beş yaşlı sakini
Elçin Allahverdiyevə!

Can bala, baxıışın yandırır məni,
Bu yanğı içimdə tufan qoparır.
Niyə yurdsuz qoyub yağılar səni?–
Sel olub haqsızlıq haqqı aparır.

Can bala, çöhrəndən oxunan kədər
Doğrasın düşmənin daş ürəyini.
Beşiyin dağılıb yurdun dərbədər,
İtirdin halalca duz-çörəyini.

Köksündə Vətənin odju, atəşi,
G.özündə Koroğlu əzəməti var.
Mənim körpə balam haqqın günəşi,
Elindən dumanı çiskini qovar.

Can bala, ümidlə sabahı gözlə,
Bu ahı, fəryadı duyan tapılar.
Hələki qanunlar kəsərsiz sözlə,
Həələ üzümüzə bağlı qapılar.

Şimşəklər qəzəbli gözünün odu,
Qarı düşmənləri yandıracaqdır.
Kəsiləcək savaş, bu dedi-qodu,
Tanrı qanmıyanı qandıracaqdır.

Can bala sazaqdan donmuş əlləri,
Qoy bu Şadimanın isti köksünə.
Allah bu savaşdan allsın elləri–
Qansızı gətirsin imana,dinə.

05.12.1990/ Qızılqum

## ƏNCAM ET

Daş, qənbər ürəklərə,
Ey Tanrım, sərancam et.

Puç olan istəklərə,
Ay Allah, bir əncam et.

Minüzlü sifətlərə,
Hiyləgər niyyətlərə,
O vəhşi silqətlərə,
Ay Alla, bir əncam et.

Axıdılan qanlara,
Yandırılmış canlara,
Köməksiz insanlara,
Ay Allah, bir əncam et.

Hissi boğmalayırlar,
Haqqı yağmalayırlar,
Eli sağmalayırlar,
Ay Allah, bir əncam et.

Qan ağlayan ellərə,
Ağı deyən dillərə,
Bu bəlalı illərə,
Ay Allah, bir əncam et.

Bu sinəsi daşlara,
Bu üzülmüş başlara,
Bu şəhid olmuşlara,
Ay Allah, bir əncam et.

Dərddən qovrulanlara,
Ömrü sovrulanlara,
Yanıb qovrulanlara,
Ay Allah, bir əncam et.

Bu fitnə-fəsadlara,
O qana həsadlara,
Ağıldan kəsadlara,
Ay Alla, bir əncam et.

Qandallanmış qollara,
Səd çəkilmiş yollara,
Darda mərd oğullara,
Ay Allah, bir əncam et.

Qaralmış gündüzlərə,

Bu ağlayan gözlərə,
Qaysaqlanmış közlərə,
Ay Allah, bir əncam et.

Bu matəmli çağlara,
Bu sinəsi dağlara,
Bu Şadiman – ağlara,
Ay Allah, bir əncam et.

08.04.1990

## DAŞNAKLAR

Bir əsrdir, bu dünyada qan çanağı qurulub,
Sinəmizə, bağrımıza zaman-zaman
Namərd dağı vurulub.
Bir əsrdir, Vətənimə hiylə toru toxunur,
Bir əsrdir –Ermənistan çağasının quluğına
Laylalarda «türk yağındır» oxunur!
Bir əsrdir, qan çanağı qan qoxuyur…

Ata-baba yurdumuzda Ermənistan
adlı dövlət yaratdılar,
Göyçəmizin sinəsini qanatdılar.
Daşnaklaşdı yağıların vicdanı da, kamalı da,
Daşnaklığa qurbavn getdi
o ellərin igidliyi, amalı da.
Daşnaklığa qurban getdi min-min məzar,
Ağı deyər qərib-qərib
daşnakların əllərində qalan gülzar.
Aratlaşdı, yeravanlaşdı, sevanlaşdı
Yad əlində qalan Vətən…
O müqəddəs yurd-yuvası qəribləşən,
doğmaları ölən-itən.
Bu torpağın övladları bir əsrdə neçə dəfə
Öz elindən, elatından sürüldülər,
Diri-diri yandırılıb, diri-diri divarlara hörüldülər!
Quyularara dolduruldu bir əsrdə
Neçə dəfə bu torpağın övladları,
Yetişmədi haqq axtaran dünyamıza fəryadları!
Sağ qalanı qaçqın oldu
güclə, zorla,
Daşnak əllə toxunulan iyrənc torla.
Diri-diri torbalara pərçim oldu körpə, çağa!
Tanqrı, özün söylə görüm
necə dözdün sən bu dağa?

Daşnak toru Naxçıvana, Qarabağa qarmağ atıb,
Xankəndini Stepanakerdə satıb.
İgidlərim qəfil yağı gülləsinə qurban gedir…
Bu haqsızlıq haqqı didir.
Hiylələrdən, fitnələrdən uzaq elim,
Bəsdir daha itirdiyin öz haqqını,
Tanı daha nahaqqını!
Bəsdir daha ovladılar torpağını.
Yüz yetmiş içəridə gəzdirdiyin yurd dağını…
Anlat min-min məmləkətə,
Susma, anlat kim salıbdı Azərbaycan
torpağını fəlakətə.
Anlat bəsdir, durma daha,
Susmağımız bizə baha.
Anlat daşnak lobbisini bu cahana,
Elan olsun qoy dəhana!
Anlat, anlat yetər daha köksündəki bu yumşaqlıq,
gözgörəlik, bu uşaqlıq.
Yetər daha içimizə biganəlik,
divanəlik.
Anlat, bütün dünyamıza daşnakın qan ocağını,
Qanla dolmuş qucağını!
Güvən, Vətən, harayına səs verəcək dünyamız var,
Cövlan edir burada şər.
Anlat ki, qoy görsün bəşər,
Paralanmış yollarını,
zəncirlənmiş qollarını.
Anlat hissim, ruhum Vətən,
Can çırpınır, para-para olubdu tən…
Öz haqqını tanıt daha,
Poladlanmış birliyinlə get sabaha…

29.11.1990/ Qızılqum

## ƏFSUS, DOST DEYƏ-DEYƏ KEÇDİN OCAQ BAŞINA
*(Erməni quldurlarına)*

Əfsus, dost deyə-deyə keçdin ocaq başına,
Bir xalq ağlı sığışmaz sən ölçdüyün arşına,
Bu namuslu torpaqda çox ər çıxdı qarşına,
Fəqət dönmədin, yağı, o getdiyin gedişdən…
Süfrəsi açıq xalqım baş çfıxarmadı işdən.

Nə biləydi beynində o cızdığın planlar?
Pak millətin şəninə söylədiyin yalanlar,
Bir zaman evimizə salacaqdır talanlar,

Qonaq təki yer verdik tutdun aranı, dağı,
Bu müqəddəs torpağa dəydi namərd ayağı!

Sən bizə qardaş dedin, belə olarmı qardaş?
İlan libasın geyib adam çalarmı qardaş?
Qardaşın torpağına tamah salarmı qardaş?

Səbəb olma bir yurdun naleyi-fəryadına,
İgidləri Koroğlu bir eli sal yadına.

Bu Nəsimi yurdudur haqq yolundan dönməyən,
Vüqarı dağ kimidir alçalmayan, enməyən,
Sinəsi yanar çıraq gecə-gündüz sönməyən,
Bəlkə səninki imiş hər ağac, kol, yarpaq da,
İtirdiyin nədir de, bu müqəddəs torpaqda?

Bir zaman yurdsuz idin, sığındın Qarabağa,
Doğmaca evimizdə tezliklə oldun ağa,
Özgənin tarixiylə çox çapdın sola, sağa,
Kiçik Ermənistanı Qarabağa köçürtdün,
Doğmalara evində hiyləylə qan içirtdin!

Hansı yalançı tarix söylə çatıbdır başa?
Səbəb olma bir elin qəzəbi aşıb, daşa,
Vəətəndə nə edəcək özgələr vətəndaşa?
Görüm qara olaydı tarixin bədnam üzü,
Əyriyə yuva verib, düzdə qoyubdu düzü.

Anamız Nətavanın ruhu inciyər bizdən,
Xankəndi ayrılmazdır bu vətən gəmimizdən!
Hansı qara əl alar tarixi əlimizdən?
Bu müqəddəs torpağın öz qızı, öz oğlu var,
Dağa gələn dumanı həzin küləklər qovar…

Fitnə-fəsad yuvası eyləmə Qarabağı,
İki xalqı üz-üzə belə qoyma, ey yağı,
Mərddən qabağa düşür namərdin qürub çağı!
Babası -Dədəm Qorqud bu torpaq mənim olsun,
Özgə yurda göz dikən el sənə qənim olsun!
Özgə yurda göz dikən el sənə qənim olsun!

20.11.1988

## QARABAĞI VERMƏRƏM

*(Röyada qulağıma Vətən bir şərqi oxudu…)*

Süfrəsi bol, könlü açıq bir eləm,
Hər millətə qardaş deyən bir diləm,
Hər fəsildə ətir saçan bir güləm,
Qaladığım gur ocağı bölmərəm,
Mən ölərəm, Qarabağı vermərəm.

Cənnətimdi hər qarışım, hər düzüm,
Çox namərdlər görüb mnim bu üzüm,
Od yurduyam, budur xalqa son sözüm;
Bir qarış da düüzü, dağı bölmərəm,
Mən ölərəm, Qarabağı vermərəm.

Sərhəd etdi çəkişmələr Arazı,
O zamandan ağlar qalıb qəlb sazı…
Ağır oldu Təbrizimə bu yazı!
Nə bağçanı, nə də bağı bölmərəm,
Mən ölərəm, Qarabağı bölmərəm.

Özgə yurdda, özgə eldə gözüm yox,
Çox namərdlər göz dikibdi bura, çox,
Lazım gəlsə sinəm qalxan, nizə, ox,
Qoruyaram çəkil, yağı, bölmərəm,
Mən ölərəm, Qarabağı vermərəm.

Od yurduyam, dağı, düzü səfalı,
Çörək kəsdim hər el ilə vəfalı,
Hansı torpaq mənim kimi cəfalı?
Əl-qol atma, solu-sağı bölmərəm,
Mən ölərəm, Qarabağı vermərəm.

Əsrlərdən xəbər verir Topxana,
O övladım, mən də ona bir ana,
Bir ah çəksəm ünüm çatar hər yana,
Can verərəm, bu torpağı vermərəm,
Mən ölərəm, Qarabağı vermərəm.

Ey Şadiman, heç sızlayıb-ağlama,
Hər yetənə böylə ümid bağlama,
Ey od qızım, od sinəni dağlama,
Bu gülşəndən bir yarpağı vermərəm,
Mən ölərəm, Qarabağı vermərəm.

22.11.1988

«HARALISAN?»

«Haralısan?» Bu sualı bir-birindən
sora-sora paralandıq,
Özümüz də bilmədik ki,
özümüzdən mahal-mahal,
oba-oba, məhlə-məhlə aralalandıq!..
«Haralısan?» Sualıyla dilimizlə
sinəmizdən yaralandıq.
Hey kiçildik bu dəhşətli sual ilə,
Geri düşdü neçə-neçə amalımız
«haralısan?» Sualıyla bilə-bilə!
İçimizin istəkləri,
ümidləri buza döndü gilə-gilə.

Keçmişimiz…ah, İlahi,
Bakı, Gəncə, Qşuba, Şəki…
Xanlıqlara parçalandı,
ayrı düşdü bir-birindən yadlar təki!
Yavaş-yavaş, hissə-hissə
süqut etdi birliyimiz,
Bir araya sığışmadı dirliyimiz.

Çocuq ikən pak azəri türkcəsiylə
anam mənə layla çaldı,
Ürəyimə alovlanan şeir, sənət odu saldı.
Tar üstündə pərvazlandım,
saz üstündə avazlandım,
«Haralısan?» Sualını doğulduğum Tağayımda
heç kəs məndən sormamışdı,
Bir sərsəri külək kimi
duyğuların zirvəsini sarmamışdı.
«Haralısan?» Sualları gürzə kimi
ürəyimdən çalmamışdı.
Könlüm dönüb, arzularım
hələ tənha qalmamışdı.

«Haralısan?» Sualları
hey verildi hər gün mənə,
Özləri də bilməyərək
toxundular ürəyimə dönə-dönə.
«Haralısan?» Sualıyla geri düşdü
neçə ümid sabahından?
Tanrı özü bağışlasın bu milləti günahından!..

Dilimiz bir, dinimiz bir,
qanımız bir, yurdumuz bir,
«Haralısan?» Sualının əlindəcə olduq əsir!
«Haralısan?» İblis olub ağlımızda,
ruhumuzda tikdi qəsir.
Bu zəiflik yağılara sipər oldu,
O hiyləgər qəlblərində təpər oldu.
«Haralısan?» Bu Vətənin, bu millətin
birliyinin arasında çəpər oldu…
Qəlbimizi etdik sınaq,
Özgələri evimizdə əziz qonaq…
Bircə kərə soruşmadıq haralısan?
Axı canla, axı qəlblə sən ki, bizdən aralısan.
Haqqımızı yerə vurdu,
Evimizin içindəcə üzə durdu.
Ey Vətənin oğlu, qızı,
«Haralısan?» sualını daha danaq,
BU FƏLAKƏT YUXUSUNDAN BİR OYANAQ!..

05.09.1990

## BƏXTİYAR

*(Sevimli şairimiz Bəxtiyar Vahabzadəyə)*

Hər el, hər xalq böyük oğul yetirməz,
Hər bağça-bağ ətirli gül bitirməz,
Ey ustadım, haqqını el itirməz,
Qurban olum fəryadına,Bəxtiyar,
Tanrı yetsin haqq dadına, Bəxtiyar.

Çox sinəni, çox ürəyi daş gördüm,
Çox nadanı məclislərdə baş gördüm,
Ey ulumuz, gözlərində yaş gördüm,
Mən ağlayım, sən ağlama, Bəxtiyar,
Hər bədxahçın qəlb dağlama, Bəxtiyar.

Zərdüştdənmi, Qorquddanmı bu hünər?
Ey Nəsimi sədaqətli igid, ər,
El yolunda qıdlıc qalxar, baş enər,
Kərəm yanır haray salır, Bəxtiyar,
Darmacalda bir el qalır, Bəxtiyar.

Vətən qalxıb bu naləyə, haraya,

Şeytan, iblis yaman girib araya,
Bu torpağa hər vurulan yaraya…
El igidi dözə bilməz, Bəxtiyar,
Qız-gəlini deyib-gülməz, Bəxtiyar.

Həm igidsən, həm şairsən, həm də mərd,
Yağılara hər sözün bir qüssə, dərd,
Sən sözünü kəskin söylə, həm də sərt,
İsinirik ocağına, Bəxtiyar,
Yurd sığınıb qucağına, Bəxtiyar.

Bu nə ələm torpağında, daşında?
Sən ağladın bu ixtiyar yaşında,
Ulu şair diz çökürəm qarşında,
Allah sənə pənah olsun, Bəxtiyar,
Sabahların nurla dolsun, Bəxtiyar.

Bu Şadiman solub düşən bir güldü,
Ahı ona fəğan edən bülbüldü,
Ürək cövrün bəyan edən o dildi,
Alqış deyir el ustada, Bəxtiyar,
Uzaq olsun səndən qada, Bəxtiyar.

27.11.1988

## GÖZLƏRİN NƏMLİSƏ, ÜRƏYİN DƏRDJLİ

Gözlərin nəmlisə, ürəyin dərdli,
Siəndə ələmi bitirənə nə?
Taleyin yolları sərhədli, sədli,
Könlünə dərdi-sər gətirənə nə?

Sən çox da alışıb yanma ürəkdən,
Ah-aman diləmə ünsüz fələkdən,
Başın açılmırsa min bir kələkdən,
Haqqı, ədaləti itirənə nə?

Göz yaşın sel olub səni aparsa,
Bir nadan içində tufan qoparsa,
Arını itirən səni taparsa,
Qeyrətsiz adını götürənə nə?

Bir yurdun ocağçı söndürülbsə,
Başına min yumruq endirilibsə,
Düzlük şər əlində dindirilibsə,
Onu şər evinə yetirənə nə?

Əgər gətirmirsə ömrün illəri,
Bir fəqana bəndsə ömrün telləri,
Kor edib qəlbini tale milləri,
Ömrün kitabını bitirənə nə?

Şadiman tifilin ömrü incələr,
Niskillərdə keçən həsrət–gecələr…
Sinəmdə dünyanın dərdi gecələr –
Bu dərdi dillərə ötürənə nə?

06.09.1989

## DÜNYA, BÖYÜK ŞƏHRİYARI NEYLƏDİN?

Həyat şirin, ömür əldən gedəri,
Yaşımızı zalım əcəl güdəri,
Getdi elin şair, igid, mərd əri,
Yurdumuza yaman tufan eylədin,
Dünya, böyük Şəhriyarı neylədin?

Heydərbabam sinəsini parçalar,
İyrənc əcəl hökmü ilə alçalar,
Ömürləri cəllad ölüm haçalar…
Ay insafsız, yamanca qan eylədin,
Dünya, böyük Şəhriyarı neylədin?

Qubasını, Bakısını görmədi,
Şirvanını, Şəkisini görmədi,
Bu tayından bircə çiçək dərmədi…
Könlümüzü niyə duman eylədin?
Dünya, böyük Şəhriyarı neylədin?

Qara tarix parçaladı Arazı,
Yurd içində qana saldı Arazı,
Qırıq-qırıq oldu, ya Rəbb, el sazı!
Ey şər evi xalqa divan eylədin,
Dünya, böyük Şəhriyarı neylədin?

Zalım zaman çaparını səyridir,
Oğruları candan, qandan əyridir,
Doğrusunu hiyləsiylə əyridir,
Ulumuza belə aman eylədin,
Dünya, böyük Şəhriyarı neylədin?

Haqqımızı zaman qoymur almağa,

Bir-birinə asüdə yol salmağa,
Yurdumuzla canbir olub qalmağa…
Canımızı ağrılı can eylədin,
Dünya, böyük Şəhriyarı neylədin?

Susdu qələm, o ustadsız ev, masa,
Niyə qıydın bağrımızı qəm basa?
Yurdum ağlar bu matəmə, bu yasa,
Sinəmizi inlər kaman eylədin,
Dünya, söylə Şəhriyarı neylədin?

Qarabağın bülbülləri ağladı,
Gözəlləri başa qara bağladı,
Zalım ölüm sinəmizi dağladı,
Od yurdunda dərdi yaman eylədin,
Dünya, böyük Şəhriyarı neylədin?

Bu Şadiman hey alışar od kimi,
Çoxları var öz elində yad kimi,
Cahan görməz belə ulu ad kimi,
Köksümüzü necə büryan eylədin,
Dünya, böyük Şəhriyarı neylədin?

27.11.1988

## EL NƏ VAXT QOVUŞAR ELİNƏ, TƏBRİZ?

Dərdli sinəmizdən kədər sovuşmaz,
Uçarıq hər zaman yelinə,Təbriz.
Niyə ayrı düşmüş bu yurd qovuşmaz?
Yetməz əllərimiz əlinə, Təbriz.

Kökü parçalanmış ağac yazlamaz,
Böldü bu ürəyi ikiyə almaz,
Gedər bu haqsızlıq bir zaman qalmaz,
Yetişər dilimiz dilinə, Təbriz.

Arada tikanlı sərhəd dirəklər,
Atını oynadar min bir kələklər,
İnsafa gələydi o daş ürəklər,
Bir vüsal səpəydi elinə, Təbriz.

Anasız çocuq tək arzu mələyir,
Onu beşiyində həsrət bələyir,
Dövran zaman-zaman qarlar ələyir,
Ələmdən ağarmış telinə, Təbriz.

Tökülən göz yaşın min dərya tutar,
Fələk bu zülmü necə unudar?
Bu nalə, bu fəryad haqqı oyadar,
Yük olmaz dərd bükən belinə, Təbriz.

Ellərin harayı tutub dünyanı,
Hanı, dadımıza yetişən hanı?
Bəsdir ayırdılar canından canı!
Qarışaq vüsalın selinə, Təbriz.

Nə vax yetişəcək bu əl, o ələ?
Ayrılıq nə qədər quracaq tələ?
Yansın düşmənldərin qoy innən belə
Suvaşsın həsrətin külünə, Təbriz.

Nə zaman yetişər o vüsal barın?
Haçan azad olar sərhəd yolların?
Zəncirdən açılan bağlı qolların
Hay salar sazının telinə, Təbriz.

Şadimanın sənə istəkli övlad,
Haqdan, ədalətdən diləyər imdad,
Kəsilər hıçqırtı, bu nalə, fəryad –
El nə vaxt qovuşar elinə, Təbriz?

16.12.1989/ Zenalabdin Tağıyev qəsəbəsi

## TANRISINDAN ÜZ ÇEVİRƏN ALLAHSIZDI LAQEYDLİK

Başımızdan əsib keçər bir sərsəri külək kimi,
Ağlımızı, qəlbimizi əsir edər fələk kimi,
Beynimizdə, ruhumuzda doğar arzu, dilək kimi,
Sinəmizdə gözlənilməz tufan olar laqeydlik,
Gürzə təki dəyməsən də adam çalar laqeydlik.

Yolu-izi kəsər durar cəllad kimi, yağı kimi,
Heç bir sinə dağ gö.rməyib laqeydlik dağı kimi,
Neçə-neçə ürəklərdən qopar gələr ağı kimi,
Gözü yolda qalanlara çəpər olar laqeydlik,
Təmizlərə, əzizlərə sipər olar laqeydlik.

Həyat ilə insanlığın arasında qara tikan,
Gücdən düşmür, əlindədir zamandan da güclü sükan,
Ürəkləri alıb-satan qəpik keçməz cılız dükan,
Dərdi sirli sağalmayan bir mərəzdir laqeydlik,
Haqla nahaq arasında bir qərəzdir laqeydlik.

Göz yaşını al şərab tək uf demədən içər keçər,
Ümidləri, inamları güllə kimi biçər keçər,
Pak, müqəddəs ürəklərdən iblis tək bir anda keçər…
Göz görəli insanlığa işgəncədir laqeydlik,
Neçə-neçə talelərlə əyləncədir laqeydlik.

Gerçəkliklə alçaqlığın arasında duran səddi,
Zərini əllərə salan, hər üzə satılan nərddi,
Şadimanın ürəyini parçalayan bir namərddi!
Sinələrdən qaçıbdırsa günahsızdır laqeydlik,
Tanrısından üz çevirən Allahsızdı laqeydlik.

19.11.1990/ Qızılqum

## XƏLİL RZA

Xəlil Rza! Vətənimin göylərində
dolan bulud,
Xəlil Rza – tufanlara sinə gərən,
ilğımları, sazaqları üstələyən güclü palıd!
Xəlil Rza –əzabları dəmirləşən,
düşmənləri əyilməyən qüdrətiylə
vurub sərən bahar seli.
Xəlil Rza –Vətənimin zümzüməsi –
dodağında kilidlənən susmaz dili.
zəncirlənən azadlığın Prometeyi!
Azərbayzan anamıızın ulu neyi.

Xəlil Rza – o susmayan
qüdrətiylə çağlayacaq!
Yağıların qan-qan deyən ürəyini
xəncər-bıçaq sözləriylə dağlayacaq.
Od yurdunun adı bizdən
özü ögey dillərini bağlayacaq.
Xəlil Rza – məmləkətin azadlığa
təşnə olan ürəyidir.
Azərbaycan torpağının ikibaşlı

əjdahaya qarşı duran dirəyidir.
Azadlığın damlasını əzizləyən,
Yolumuzdan tikanları, qanqalları təmizliyən,
Dədə Qorqud babamızdır!..
Xəlil Rza – min ildir ki, fəryad edən,
fəğan edən qəlbi qopuq dərdli sazdır!
Xəlil Rza – min bir yerdən parçalanmış,
İgidləri diri-diri odda yanmış
Azərbaycan adlı diyar,
Yağıları oq Koroğlu nərəsiylə başsız qoyar.
Xəlil Rza – istiqlalın
özü boyda parlaq Günəş.
Yüz yetmiş il sinəmizdə zaman-zaman,
Nəsil-nəsil doğan atəş.
Zəncirləri qolumuzdan qıracaqdır nərəsiylə,
Azərbaycan ölkəsini tanıdacaq dünyamıza
öz istiqbal kürəsiylə,
Qalacaqdır yerin, göyün yaddaşında
o müqəddəs haqq səsiylə!..

22.11.1990/ Qızılqum

## BU DÜNYADA

Kimlər gedir, kimlər qalır,
Bu dünyada, bu dünyada.
Mərd üstünə kölgə salır,
Bu dünya da, bu dünya da.

Kimsəsizin burnun ovar,
Haqq deyəni yurddan qovar,
Təmizləri satar, sovar,
Bu dünya da, bu dünya da.

Gücsüzlərə şahmar ilan,
Zor əlində qırğın, talan,
Kimdi görən sona qalan?
Bu dünyada, bu dünyada.

Əzazilin başındadır,
Sanki onun yaşındadır,
Doğru, yalan qarşındadır,

Bu dünya da, bu dünya da.

Ey Şadiman, çəkibdi sədd,
Hər addıma yoxdu bir hədd,
Parça-tikə min-min sərhəd –
Bu dünyada, bu dünyada.

20.10.1989

## VİCDAN ÖZÜNÜ DAMĞALAYIRLAR

Naqislik dünyada dövran sulayır,
Pislik yalquzaq tək qəlb-qəlb ulayır,
Axıdılan qanlar haqqı bulayır,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Pulla həqiqəti satın alırlar,
Dünyanın boynuna kəmənd salırlar,
İlan tək haqq dili qəfil çalırlar,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Yetim tək düzlüyün boynu bükülür,
Yağılar əlində yurdlar sökülür,
Çox yanar ocağa sular tökülür,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Hey dolur, boşalır fitnə-fəsadlar,
Sərvətə, dövlətə, pula həsadlar,
Nala-mıxa döyür qəlbi kəsadlar,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Tamah torbasını salıb boynuna,
Yığır dilənçi tək varı qoynuna,
Görən necə dözür fələk oynuna?
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Ürəklər, diləklər, məramlar qansız,
Düşünən imkansız, duyan imkansız,
Pislik qan sulayır zaman, məkansız,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

İlahi, bəndələr naşükürləşib,
Dünya başdan-başa lap məkirləşib,
Mürvətsiz, insafsız başda əyləşib,
Vicdan deyəf-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

Böyüyün, kiçiyin yeri boş qalıb,
Min bir işgəncələr yurd-yurd baş alıb,
Bu şahmat oynuna Tanrı mat qalıb,
Vicdan deyə-deyə yağmalayırlar,
Vicdanın özünü damğalayırlar.

21.01.1990/ Zeynalabdin Tağıyev qəsəbəsi

## DÜNYANIN BOYNUNA KƏMƏND OLUB DƏRD

Dünyanın boynuna kəmənd olub dərd,
Düşüb ayaqlara ayaqlanır mərd.

Hakimlər başında bəzəkli taclar,
Küçədə dilənir naəlac aslar.

Haram tikə ilə qarınlar şişir,
Qanunlar, hökümlər hörmətdən düşür.

Niyə könüllərdən azalıb işıq?
İnsan aha batıb vicdan qarışıq.

Həyat başdan-başa açılmaz sirdir,
Ağlayan da birdir, gülən də birdir.

Biri yaşamaqçın özünü üzür,
O biri şöhrətin fövqündə üzür.

Hərə öz gücünə güvənə nə şər?
Nurdan don geyərdi dünyada bəşər.

Verməzdi hökmünü nə ölüm, nə qan,
Nə də günahlara batmazdı insan.

Onda bu Şadiman yanar söz ilə,
Acı etirafı almazdı dilə!

12.01.1991

## DİL NAHAQ DANIŞANDA

Duyan insan boğular,
Zülm həddin aşanda.
Min-min fitnə doğular,
Dil nahaq danışanda.

Zamanın çərxi dönər,
Elin çırağı sönər,
Yerdə sürünər hünər,
Dil nahaq danışanda.

Dünya namərdlə dolar,
Tanrının gözü dolar,
Ömür yarımçıq solar,
Dil nahaq danışanda.

Çox yurdun odu keçər,
Günahzsız candan keçər,
Dünyamızı qəm biçər…
Dil nahaq danışanda.

Ey Şadiman, bezaram,
Həqiqəti gəzərəm,
Həyatımdan bezərəm,
Dil nahaq danışanda.

06.04.1990

## İLAN TƏKİ QƏFİL ÇALAR SİNƏDƏN

İlan təki qəfil çalar sinədən,
Namərd ki, var sözü deməz düz üzə.
Özülü də əyri olub binədən,
Mini gəlməz bir mərd ilə üz-üzə.

Fürsət oldu kişi evi yıxandır,
Doğulandan elə ələ baxandır,
Yıxılanda mərd əlini sıxandır,
Olmasaydı nə edərdi düz-düzə?

Əyriliyi, oğruluğu aşikar,
Hər gün tora salar gizli min şikar,
El çalışar, yurd çalışar, o bekar,
Günahkarsan əgər gəlsən söz-sözə.

Haqq sözünü nahaq edər bir anda,
Hörmətlidir, izzətlidir hər yanda,
Yediyini əldən verməz doyanda,
Yaşa gəlsə hesab verər yüz-yüzə.

Ey Şadiman, heç ağratma başını,
Gəələnlərin əlində öz arşını,
Gedənlərsə görmədi heç qarşını…
Sığınmayıb bu dünyada od gözə!

16.11.1988

## ULU TANRIM, NARAHATAM

Min bəlalı sabahlarçın,
Necə deyim mən rahatam?
Dünya tutmaz günahlarçın
Ulu Tanrım, narahatam.

El içində elsiz olmuş,
Öz yurdunda dilsiz olmuş,
Cahan nahaq qanla dolmuş,
Ulu Tanrım, narahatam.

Nə qədər ki, haqq qəfəsdə,
Fitnə-fəsad min həvəsdə,
Yağlamaq hər nəfəsdə,
Ulu Tanrım, narahatam.

Nə qədər ki, yalan gülür,
Vaxt-vədəsiz bel bükülür,
Əcəlsiz də İNSAN ölür…
Ulu Tanrım, narahatam.

Cılızlaşan qeyrətlərçin,
Asiləşən millətlərçin,

Dağıdılan nemətlərçin,
Ulu Tanrım, narahatam.

Söndürülmüş ocaqlar var,
Fənd yuvası qucaqlar var,
Qan tökülmüş bucaqlar var,
Ulu Tanrım, narahatam.

Çəkilməyən dərdlərimiz,
Namərdləşən «mərdlərimiz»,
Keçilməyən sədlərimiz,
Ulu Tanrım, narahatam.

Tale mənə bıçaq düşüb,
Dərdi saçaq-saçaq düşüb,
Vicdan başdan qaçaq düşüb…
Ulu Tanrım, narahatam.

8-14.03.1990

## DƏLİ KÖNÜL, BELƏ BOŞALIB DOLMA

Dəli könül, belə boşalıb dolma,
Şərxata adamda dil əyri olur.
Nahaq işdən gəl sən pəjmürdə olma,
Namərd bölgüsündə əl əyri olur.

El malın namərdlər çapıb yeyirsə,
Mənsəbbaz özünə Allah deyirsə,
İkiüzlü bir anda min don geyirsə,
Beləsinə gün, ay, il əyri olur.

Gözlər gördüyünə əyri baxırsa,
Tikili bir evi vurub yıxırsa,
Bənd-bəərəsiz sular coşqun axırsa,
Gur çaylarda dəli sel əyri olur.

İdrakda, şüurda pislik doğulsa,
Müqəddəs yaxşılıq susub boğulsa,
Yurdan çıxan yurda namərd oğulsa.
O da xalq ağzında bil əyri olur.

Dünyada yaxşılıq qalır ellərdə,

Mərdlik, qəhrəmanlıq gəzir dillərdə,
Şadiman, heç günah görmə illərdə,
Vaxtsız dərdi-sərdən bel əyri olur.

18.10.1987

## YOLUNDAN AZANDAN İMAN GÖZLƏMƏ

Naqisdən doğruluq, namərddən düzlük,
Özünü sevəndən peyman gözləmə.
İkiüzlü adamdan saflıq, təmizlik,
Yolundan azandan iman gözləmə.

Çox mənəm deyənlər özündən dedi,
Min-min günahsızın başını yedi,
Özgə əməyilə zərxara geydi –
Əyri əməllərə zaman gözləmə.

Kişilər az gəlib qoca dünyaya,
Qanmazlar qananı verib fənaya,
Çox dil pəhləvanı yetərək «haya»,
Başına ələyər duman gözləmə.

Özündən razılar tutub dünyanı,
Bir qara qəpiyə satıb dünyanı,
Alovun köksünə atıb dünyanı,
Vicdanı yoxsuldan aman gözləmə.

Düzlükdən danışdı çox kələkbazlar,
Ağıl da öyrətdi ağlı dəayazlar,
Suyun çirkabına baş vurar qazlar,
Düzəm, deyəndən qaç, yaman gözləmə.

Çox əyri əllərdə söndü min ocaq,
Çox tale, çox ürək oldu oyuncaq,
Dost əli sinənə saplasa bıçaq…
Döz ağrı-acına, dərman gözləmə.

Şadiman, boşalıb dolma bulud tək,
Bəmdə haray çəkmə yanıqlı ud tək,
Ömrün tufanına döz bir palıd tək…
Yaxşıya baş endir, fərman gözləmə!

19.10.1989

## XƏZƏR, DƏRDƏ DÖZ , AĞLAMA

Qəmli-qəmli köks ötürmə,
Qara geyib, göy bağlama.
Dərdli qəlbə dərd gətirmə,
Xəzər, dərdə döz, ağlama.

Hanı suyun nur saflığı?
Dalğaların şəçffaflığı?
Bəndələrin insaflıığı?
Xəzər, dərdə döz, ağlama.

Bax neftinin sarayına,
Balıqların ah-vayına,
Gəələn olar harayına,
Xəzər, dərdə döz, ağlama.

Suyun qara, havan zəhər,
Özün xəstə, varın bəhər,
Dalğaları boğar qəhər,
Xəzər, dərdə döz, ağlama.

Dəmirlərlə sinən dolu,
Bura düşüb bəndə yolu,
Tökmə gözdən leysan, dolu,
Xəzər, dərdə döz, ağlama.

Əslə, kökə balta çalan,
Özü olur düzdə qalan,
Sinən olub çoxdan talan,
Xəzər, dərdə döz, ağlama.

Bu Şadiman sinə dağlı,
Oynadıbdır tamah ağlı,
Yolun çətin, qolun bağlı,
Xəəzər, dərdə döz ağlama.

23.07.1990

## MƏN SƏNİN HALINA YANAN ÖVLADAM…

Neft Daşları –
Xəzərimi bütün dünyaya
tanıdan şan-şöhrət çələngi…

Həm də Xəzərimin mavi sevinc yaşlarını,
qara göz yaşlarına çevirən
və onu matəm kürsüsüdə oturdan
ölüm nəhəngi!
Neft Daşları – Vətənin damarından
axan qara qanı,
Varınla, qara qızılınla boyadın hər yanı.
Bəs öz sərvətin, varın hanı?
De, səni rəhmə gətirmirmi
Qəfildən dəniz dibinə yuvarlanan
Neçə-neçə nakamın «yaşamaq istəyirəm»
Deyən yanıqlı naləsi,
«Məni belə vaxtsız udma deyən səsi…

Neft Daşları, bəs hanı
səni dünyaya tanıdanlar?
Varını, sərvətini bir göz qırpımında udanlar,
Və sənin sabahını unudanlar.
Niyə mərhəmət göstərmir sənə?
Bu qara dumana, bu qara çənə.
Qapqara çirkaba bürünmüş dənizə və bizə
kim imdad eliyəcək?
Sinəmizdə asiləşən fəqanımızı
butün məmələkətlərə söyləyəcək.

Neft Daşları, Xəzərimin bir ovuc
havaya həsrət boğulan nəfəsi,
Yaşamaq eşqiylə yanıb qovrulan
balıqların amansız qəfəsi,
Vallah sənin şəninə demirəm nəsi.

Neft Daşları, sinəndə yuva salmış
bu bəndəyə nankor demə,
Hirislənib məni də çevirmə yemə,
Belə məlul-məlul baxıb bağrım başın yemə!
Mən sənin halına yandığımdandır
deyirəm bu sözləri,
Söylə, necə qınayıb görən gözləri?
Dildə Vətənimin «şöhrət » çələngi,
Fəqət, Xəzərimi matəm
kürsüsündə oturdan ölüm nəhəngi!
Əslində bu sözlərlə oxşadım səni,
Qınama məni!
Qınama məni!

22..07.1990

## KÜLƏKLƏR DƏLİ ƏSƏR

Sevgilər olsa bərbad,
Ölüm cana tələsər.
Üsyankar, coşqun, abad,
Küləklər dəli əsər.

Odur əbədi səyyad,
Can cana olarsa yad,
Dünyanı tutar fəryad…
Küləklər dəli əsər.

Ağzına alar ərzi,
Necə mat qoyar bizi?
Odlayar yolu-izi
Küləklər dəli əsər.

Haqsız bir iş olanda,
Ürəyə qəm dolanda,
Bir pak ömür solanda
Küləklər dəli əsər.

Nahaqdan ölüm varsa,
Dünyaya dərd axarsa,
Qəlb haqqa kəc baxarsa,
Küləklər dəli əsər.

Gənc ürək qarıyanda,
Qəm teli darıyanda,
Namərdlər yarıyanda
Küləklər dəli əsər.

21.07.1985/ Yasamal

## ANA

Ay kiçik obamda ışıqlı günüm,
Dünyada ən böyük dövlətim ana.
Həyata göz açdım sədaqətinlə,
Ay ellər içində hörmətim ana.

Sən mənim həyatda duzum, çörəyim,
Arzular qoynunda çarpan ürəyim,

Ay odlu torpaqda sınmaz dirəyim,
Ən ülvi, ən müqəddəs sərvətim ana.

Mənə ürək verdin – nəğməli dəniz,
Mənə vicdan verdin – ləkəsiz, təmiz,
Mənə Vətən verdin – müqəddəs, əziz,
Ay mənim yorulmaz qüvvətim ana.

Dünyaya bəllidir o uca adı,
Məhsəti, Nətəvan əzəl ustadı,
Ey Tomris, ey Həcər, Nigar övladı,
Ay mənim namusum, ismətim ana.

02.11.1977/ Yasamal

## SƏN VARSAN, ATA

Qəzəbin olsa da ildırım, şimşək,
Sənsən qibləgahım bu dünyada tək,
Eyləmə, tacidar, buna şübhə, şəkk,
Ən uca zirvədə pak qarsan, ata,
Yaxşı ki, dünyada sən varsan, ata.

Bir sərin axşamda gözüm dolardı,
Başımın üstünü tufan alardı,
Sənsiz mənim halım necə olardı?
Sən sərvət, sən dövlət, sən varsan ata.
Yaxşı ki, dünyada sən varsan, ata.

Ən ulu dağlarım sənlə ucalır,
Bu təbim, ilhamım səndən bac alır,
Mənə deyəndəki atan qocalır…
Sınan ümidimə sən yarsan, ata,
Yaxşı ki, dünyada sən varsan, ata.

Qızlar anasından həya alarlar,
Ana ətəyinə mehr salarlar,
Atasız çiçək tək mehdən solarlar,
Sən namus, sən ismət, sən arsan, ata,
Yaxşı ki, dünyada sən varsan, ata.

Mənim bu həyatla əhdü-peymanım,
Damarda dövr edən, qaynayan qanım,
Mənim ulu dünyam, ey şirin canım,
Əzəldən arzuma vüqarsan, ata,
Yaxşı ki, dünyada sən varsan, ata.

Ata ocağına sığınar ürək,
Bülbül qanadlıdır min arzu, dilək,
Olduğum ocağa ey arxa, dirək,
Halal zəhmətinlə çinarsan, ata,
Yaxşı ki, dünyada sən varsan, ata.

Ay oğul-uşağa cəfalar çəkən,
Bir gündə üstünə min dərd-qəm tökən,
Ey ailə adlı ağır yük çəkən…
Həyat dənizinə avarsan, ata,
Yaxşı ki, dünyada sən varsan, ata.

Əsəbin varımdı – yağar başıma,
Gülüşün selimdi – çıxar qarşıma,
Mənim uşaq, cavan, qoca yaşıma,
Sanki gülüstanlıq, gülzarsan, ata,
Yaxşı ki, dünyada sən varsan, ata.

Şirin Xanım sənin şirin balandı,
Bircə an yoxluğun ömrü taladı,
Sənsiz mənim üçün həyat yalandı,
Həmişə ömrümə baharsan, ata,
Yaxşı ki, dünyada sən varsan, ata.

11.07.1986/ Zeynalabdin Tağıyev qəsəbəsi

## GƏL TƏLƏSMƏ AĞARMAĞA, SAÇLARIM

Qocalığı duyuq salma amandır,
Qoyma telə qarı yağa, saçlarım.
Vaxtsız düşən payız, qış da yamandır,
Gəl tələsmə ağarmağa, saçlarım.

Bu dünyanın kədəri bol, qəmi bol,
Min havada yaxşı, yaman dəmi bol,
Qəlb dolanda gözlərimin nəmi bol,

Gəl tələsmə ağırmağa, saçlarım.

Mərdlik də var, namərdlik də dünyada,
Düyünlərdən baş çıxarmır dünya da,
Ekiz olub şadlıq, kədər, xülya da,
Gəl tələsmə ağarmağa, saçlarım.

Dünya böyük düşünən çox, duyan az,
Yaman olur «mənəm », deyəndə dayaz,
Qarlı qışdın sonra gəlir bahar-yaz,
Gəl tələsmə ağarmağa, saçlarım.

Baş ağrıyır addım düz olmayanda,
Payız nədir yarpaqlar solmayanda?
Namərdlərdə vicdan, ar qalmayanda
Gəl tələsmə ağarmağa, saçlarım.

Məhəbbətdən, sədaqətdən danışdıq,
Ucalıqçın zirvələrlə yarışdıq,
Çətin anda əğyarla da barışdıq,
Gəl tələsmə ağarmağa, saçlarım.

Biz bir olsaq dünya sevinclə gülər,
Kürəmizə nəşə, şadlıq tökülər,
Bünövrəsiz daş binadan sökülər,
Gəl tələsmə ağarmağa, saçlarım.

Qaçhaqaçda, qovhaqovda bu zaman,
Dünən gəldi, bu gün getdi il aman,
Bu Şadiman inci tapar dəryadan…
Gəl tələsmə ağarmağa, saçlarım.

14.11.1987

## ÜRƏK NİYƏ AĞRIYIRSAN?

Nə dolmusan qəmlər ilə,
Köksün için dağlayırsan.
Dərdi-səri bilə-bilə,
Ürək, niyə ağrıyırsan?

Toysuz, vaysız bir günmü var?

Bir açılan düyünmü var?
Yorulmayan beyinmi var?
Ürək, niyə ağrıyırsan?

Sözə sadiq çıxan da var,
Nahaqdan ev yıxan da var,
Xain gözlə baxan da var,
Ürək, niyə ağrıyırsan?

Gülmək də var, ağlamaq da,
Dərddən qubar bağlamaq da,
Bəzən coşub-çağlamaq da,
Ürək, niyə ağrıyırsan?

Yaxşı sözün yaman olar,
Ömründə çən-duman olar,
Səadətin güman olar,
Ürək, niyə ağrıyırsan?

İş hər gün düz gətirərmi?
Namərd haqqı yetirərmi?
Mərd mərdliyin bitirərmi?
Ürək, niyə ağrıyırsan?

Çox deyərlər qara –ağa,
Çox dözərlər min bir dağa,
Qəlbə leysan yağa-yağa-
Ürək, niyə ağrıyırsan?

Vaxt olar ki, tale gülər,
Sevinc açar, qəm bükülər,
Göydən yerə nur tökülər,
Ürək, niyə ağrıyırsan?

Şadimandan ibrət elə,
Onun dərdi gəlməz dilə,
Sən bunları bilə-bilə
Ürək, niyə ağrıyırsan?
Ürək, niyə ağrıyırsan?

30.07.1985/ Yasamal

## DƏYMƏ MƏNİM ÜRƏYİMƏ

Gülə qonam bir bülbüləm,
Sevda düşüb diləyimə.
Axı özüm sənə diləm,
Dəymə mənim ürəyimə.

Eşqi təmiz saxlamışam,
Qəlb dolanda ağlamışam,
Sənə ümid bağlamışam,
Dəymə mənim ürəyimə.

Həyat başdan bizə sınaq,
Narahatlıq ona qonaq,
Gəl ikimiz birgə yanaq,
Dəymə mənim ürəyimə.

Bu Şadiman susmaz dilin,
Sevgisiyəm ayın, ilin,
Əllərimdən tutsa əlin…
Dəymə mənim ürəyimə.

22.04.1987

## QALDI YOLLARINDA YORĞUN BAXIŞLAR

Bəxtimə saldığın min bir düyünü,
Açıb bu aləmə eyləydin faş.
Tək sənin oduna yandığım günü,
Bir daha ömrümə qaytaraydın kaş.

Bu qəfil həsrətlə verib baş-başa,
Sənsiz günlərimlə alışmayaydım.
İnsaflı bağrımı döndərib daşa –
Bu dəli sevdaya qarışmayaydım.

İndi mən imkansız, sənsə peşiman,
Arada keçilməz min bir yoxuşlar.
Şadiman, gör kimə gətirdin iman?
Qaldı yollarında yorğun baxışlar.

19.11.1990/ Qızılqum

## ÖZÜNÜ SƏN BELƏ ÖYRƏTMƏ MƏNƏ

Axı bu dünyanın ayrılığı var,
Salır insanları çiskinə, çənə.
Həsrəti, hicranı ürəklər ovar,
Özünü sən belə öyrətmə mənə.

Onsuz da xəzanı düşmüş payızam,
Sinəsi ah-nalə, dərdli bir sazam,
Ayrı planetə uçan ulduzam,
Özünü sən belə öyrətmə mənə.

Tanrının önündə gücsüz bəndəyik,
Hökmü-fərmanına biz daməndəyik,
Əcəl qarşısında gör nə gündəyik,
Özünü sən belə öyrətmə mənə.

Dəli sevgimizə qənim tapılar,
Həsrət üzümüzə açar qapılar…
Ayrılıq oduyla ürək çapılar,
Özünü sən belə öyrətmə mənə.

Sübhün yazısını oxudu kimlər?
Eşqin əlacını bilməz həkimlər,
Qarışıq dünyada çoxdu hökmlər,
Özünü sən belə öyrətmə mənə.

Bəlalı ürəyim yolunda ehsan,
Bu bahar könlümə eşq özü leysan,
Şadiman sanmayır sevməyi asan,
Özünü sən belə öyrətmə mənə.

25.11.1990/ Qızılqum

## GÖZÜM ALDI, KÖNÜL TUTDU, SEVGİLİM

Gözüm aldı, könül tutdu,sevgilim,
Tuti dilə, şirin sözə vuruldum.
Eşqin məni oda atdı, sevgilim,
Sinəndəki oda, közə vuruldum.

Dağdan aşan dəli seləm, çağlaram,
Xəyalınla pünhan ülfət bağlaram,
Möhnətindən illər boyu ağlaram,

Göz yaşımı süzə-süzə vuruldum.

Çiçəyinəm, üşüyürəm bağında,
İlğımlara tuş olubdu bağımda,
Tufan vurmuş, xəzəl olmuş çağımda
O qamətə, o xoş üzə vuruldum.

Bir ocağam, gəl toxunma qoruma,
Eşqi məndən, məni ondan qoruma,
Könlün düşüb mənim sevgi toruma
Qoynuna gül düzə-düzə vuruldum.
Şadimanın dərdi dağlar qədərdir,
Taleyini qara yazan qədərdir,
Demə, gülüm, sevgi gəldi-gedərdir,
Faş eyləmə eşqi üzə vuruldum.

03.12.1990/ Qızılqum

## İTİRDİM BİR PAYIZ SƏHƏRİ SƏNİ

İtirdim bir payız səhəri səni,
Bu külək hayandan əsdi, bilmədim.
Tale ayrı saldı qismətdən məni,
Hicranın üstümdə əsdi, bilmədim.

Çevirdi üstümə yaman dilləri,
Yolunda sazağa verdim illəri,
O dəli köhlənli zaman selləri,
Bəndimi-bərəmi kəsdi, bilmədim.

Niyə Şadimana zülm etdi fələk?
Puç oldu yolunda neçə kam, dilək,
Ağlaya-ağlaya daş oldu ürək,
Müqəddəs eşqimdən küsdü, bilmədim.

19.11.1990/ Qızılqum

## QINADIN MƏHƏBBƏTİ

Qınadın məhəbbəti,
Ayaqladın ülfəti,
Getdin biganələr tək.
Həyatımla gərdişin,
Bu amansız gedişin,
Ürəyimi qoydu tək.

Vermədin mənə zaman,
Üzdün könlümü yaman,
Bu səninçin çox güman,
Ən adi gediş oldu.
Baxmadın gileyinə,
Bir insan taleyinə
Yazılan eniş oldu.

Aradakı sədlərim,
Keçilməz sərhədlərim,
İndi sənli dərdlərim
Bir dağ oldu qarşımda.
Ah – ürəyi dənlərmi?
Dumanlarmı, çənlərmi
Ayaq açdı başımda?

Söylədiyin o dillər,
Əritdi neçə illər,
Puç etdiyin könüllər,
Qəlbini döyəcəkdir,
Qəddini əyəcəkdir.
Eşq könlümün afəti,
Sənə olan nifrəti
Aləmə deyəcəkdir.

28.04.1990

## DƏLİ MÖHNƏTİNƏ DÖZÜM QALMAYIB

Dəli möhnətinə dözüm qalmayıb,
Könlümə nəşəni düz inci-inci.
Sual et, neçə yol dözüm dolmayıb?
Sinəm məlalını süz inci-inci.

Odlanıb yanıram neçə müddətdi,
Həsrət sağalmayan mərəzdi, dərddi,
Mənim eşqim ki var, dünyada mərddi,
Onu məhəbbətlə süz inci-inci.

Özümə yad oldum sənsiz el bilir,
Leysanın gücünü dağda sel bilir,

Məcnunun eşqini səhra, çöl bilir,
Qoy onun içinə üz inci-inci.

Ey eşqimin dağı, mən gileyinəm,
Piyalənə axan şəffaf meyinəm,
Yanıqlı kamanın, qəmli neyinəm,
Bas bağrım başına köz inci-inci.

Çılğın dağ seliyəm, yol ırız hanı?
Ömür kitabımın sənsiz yox anı,
İlqara sadiq ol, sən ömrü, canı
Bu Şadiman üçün üz inci-inci.

23.10.1988

## DEDİM, AYRILAQ

Könlümdə ilahi məhəbbətini,
Qoruya-qoruya, dedim, ayrılaq.
Fələkdən bəxtimin səadətini,
Soruya-soruya, dedim, ayrılaq.

Əlinin istisi qaldı əlimdə,
Bəlalı sevgimin adı dilimdə,
Uzaqdan, yaxından səni dilim də,
Araya-araya, dedim, ayrılaq.

Səni qoruyarkən yad alqışlardan,
Min bir tənələrdən, sərt qarğışlardan,
Könlümə muniskən pak baxışlardan
Yarıya-yarıya, dedim, ayrılaq.

Könlümün könlümə sayğılarını,
Bəlalı eşqimin duyğularını,
Tənha gecələrin uyğularını
Yoruya-yoruya, dedim, ayrılaq.

Addımlar sevgimiz bəxt küçəsiylə,
Bizi qovuşduran ümid səsiylə,
Könlüm həsrətinin işgəncəsiylə
Qarıya-qarıya, dedim, ayrılaq.

Ürəyim həzin ney, yaralı tütək,
Bu Şadiman sızlar sənsiz tənha, tək,
Eşqini könlümə ipəkqurdu tək
Sarıya-sarıya, dedim, ayrılaq.

30.11.1989/ Zeynalabdin Tağıyev qəsəbəsi

## MƏNƏ ELƏ GƏLİR Kİ…

Mənə elə gəlir ki…
Sənindir bu ürək, can.
Mənə elə gəlir ki…
Məni sən yaratmısan.

Mənə elə gəlir ki…
Bu müqəddəs torpağı,
Hər gülşəni, hər dağı,

Adicə bir yarpağı
Mənə sən yaratmısan.

Mənə elə gəlir ki…
Qərinəni, zamanı,
Bu yağışı, dumanı,
Ürəyimdə gümanı
Mənə sən yaratmısan.

Mənə elə gəlir ki…
Göydə uçan quşları,
Sirr yuvası daşları,
Gözlərimdə yaşları
Mənə sən yaratmısan.

Mənə elə gəlir ki…
Coşub-daşan çağlayan,
Gah gülən, gah ağlayan,
Məni sənə bağlayan
Eşqi sən yartmısan!

02.11.1978/ Yasamal

## YUXUMA NİYƏ GƏLMİSƏN?

Anlaya bilmədim səni,
Açılmayan bir sirmisən?
Ürəyimə çəkib çəni
Yuxuma niyə gəlmisən?

Düşsə də bu mənə baha,
Batsa da sevgim günaha,
Biz ki, yad olmuşuq daha,
Yuxuma niyə gəlmisən?

Sən özgə bir qəlb aradın,
Kimin telini daradın?
Başqa birinə yaradın,
Yuxuma niyə gəlmisən?

Röyan nəyimə lazımdır?
Bu da bir tale yazımdır,
Verdiyin qəmlər azmıdır?
Yuxuma niyə gəlmisən?

Bu Şadimandan doymusan,
Könlünü darda qoymusan,
Başqa sevdaya uymusan,
Yuxuma niyə gəlmisən?

27.07.1985/ Yasamal

## SƏNİ İSTƏYİR ÜRƏK

Yoxdur gecə-gündüzüm,
Qəmə salıbdır fələk.
Qalmayıb səbri-dözüm,
Səni istəyir ürək.

Könlümü ovutmağa,
Dərdimi sovutmağa,
Qəmimi dağıtmağa,
Səni istəyir ürək.

Pərdə-pərdə gəlir qəm,
Sənsiz heçdir bu aləm,
Ərşə qalxıbdı naləm,
Səni istəyir ürək.

Açılmayır sabahım,
Tutacaq səni ahım,
Buldurmu ki, günahım
Səni istəyir ürək?

Başıma dərd açma gəl,
Qürbətlərə uçma gəl,
Qismətindən qaçma gəl,
Səni istəyir ürək.

Bu Şadiman çəkir dad,
Yetmirmi sənə fəryad?
Könlümə eylə imdad,
Səni istəyir ürək.

19.10.1989

## SƏN MƏNİ HƏR YERDƏ ARAYACAQSAN…

Surətim gözündə güzgü olacaq,
Eşqimlə telini darayacaqsan.
Özündən xəbərsiz gözün dolacaq,
Sən məni hər yerdə arayacaqsan.

Düşmən kəsiləcək sənə ürəyin,
Xatğirəm olacaq könül dirəyin,
Didərgin düşəcək eşqin diləyin,
Mənim xatirəmlə yarıyacaqsan.

Gözündən, könlündən düşəcək həyat,
Yalnız mən olacam bağrına səyyad,
Xəyalım köksündə quracaq busat,
Bu sirri hamıdan qoruyacaqsan.

Mənli günlərini yığıb sinənə,
Dolub boşalsa da qəlb dönə-dönə,
Bu çətin olsa da, əzizim, sənə,
Mənim həsrətimlə qarıyacaqsan.

24.06.1986/ Zuqluba

## BU HƏYATIM AĞLAR BİR NEY…

Bu həyatım ağalar bir ney…
Bəmdə, zildə ötər, sənsiz.
Hər sözümdən yağar giley,
Xoş günlərim bitər, sənsiz.

Diri ikən dünyam gordu,

Alışıbdı sinəm qordu,
Ürək səni məndən sordu,
Özüm ondan betər, sənsiz!

Necə dözüm bu gedişə?
Ömrüm ilə bəd gərdişə,
Gedər əldən sevinc, nəşə,
Səadətim itər, sənsiz.

Həsrət məni yaraladı,
Taleyimi qaraladı,
Ağ bəxtimi qaraladı,
Yolumda çən bitər, sənsiz.

Hicran qəmə muştuluqçu,
Şadimanın nədir suçu?
Dalınca bu ürək uçub
Yoxdu xəbər-ətər, sənsiz.

27.11.1990/ Qızılqum

## EY MƏNİM TALEYİMİN SABAHI

Ey mənim taleyimin sabahı,
Ömrümün, günümün pənahı,
Həsrəti könlümün günahı –
Harada qaldın?
Bəlkə kiminsə qəlbində yurd saldın,
Gəl, gəlişinlə yanıqlı könlümə bir içim su ol,
Nə məndən inci, nə də asi ol.
Bilmirəm hara aparır məni bu yol…
Fəqət hirsinlə, hikkənlə,
Həyat oynu oynama mənlə.
Gah şirin, gah acı sözlərinlə,
Bir cüt ala gözlərinlə –
Mənimki ol,
Mənimki ol.

22.07.1990

son

*Ширин ханум Керимбейли*

СЕРДЦЕ, ПОЧЕМУ ТЫ БОЛИШЬ?

*стихи*

(На азербайджанском языке)

Баку — Азернешр — 1991

*Ширин ханым Кәримбәјли*

ҮРӘК, НИЈӘ АҒРЫЈЫРСАН?

Редактору *Илјас Тапдыг*
Рәссамы *Ф. Фәрәчов*
Бәдии редактору *Т. Мәликов*
Техники редактору *З. Нәчәфова*
Корректорлары *З. Мәммәдова, Р. Мәммәдова*

ИБ № 5404.

Јығылмаға верилмиш 05. 06. 91. Чапа имзаланмыш 12. 09. 91. Форматы 70×90[1]/32. Мәт. кағызы № 2. Әдәби гарнитур. Јүксәк чап үсулу илә. Шәрти чап вәрәги 2,05. Шәрти рәнкли сурәти 2,27. Учот нәшр вәрәги 2,0. Тиражы 3000. Сифариш 248. Гијмәти 2 ман.

Азәрбајчан Республикасы. Дөвләт Мәтбуат Комитәси.
Халглар достлуғу орденли Азәрбајчан Дөвләт Нәшријјаты, Бакы—370005, Һүсү Һачыјев күчәси, № 4.
Мәтбуат Истеһсалат Сәнаје Бирлији
«Гызыл Шәрг» мәтбәәси, Бакы, Һәзи Асланов күчәси, № 80

Государственный комитет Азербайджанской Республики по печати
Азербайджанское ордена Дружбы народов государственное издательство «Азернешр». Баку—370005, ул. Гуси Гаджиева, 4.
Производственное промышленное объединение по печати.
Типография «Гызыл Шарг». Баку, ул. Ази Асланова, 80.